AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

**AZS 1.4**

İkinci nəşr
2023

# Azərbaycan Respublikasının Milli Standartlaşdırma Sistemi Müəssisə standartları. Ümumi müddəalar

# National System for Standardization of the Republic of Azerbaijan Enterprise standards. General Provisions

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

İstinad nömrəsi
AZS 1.4:2023

©AZSTAND 2023

Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz.

Elçin İsaqzadə küç., 7-ci köndələn
Telefon: +994125149308
Email: office@azstand.gov.az


©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜQƏDDİMƏ

**1.** “Azərbaycan Standartlaşdırma İnstitutu” PHŞ tərəfindən işlənib hazırlanıb.

**2.** “Təşkilati, metodoloji və ümumi texniki standartlar” üzrə Texniki Komitə (AZSTAND/TK 37) tərəfindən təqdim edilib.

**3.** Azərbaycan Standartlaşdırma İnstitutunun _24___ _May___ 2023-ci il tarixli __AZSTAND/Q-31/2023____ saylı qərarı ilə təsdiq edilmişdir.

**4.** AZS 1.4:1996 “Azərbaycan Respublikasının dövlət standartlaşdırma sistemi Müəssisə standartları. Ümumi müddəalar” dövlət standartının əvəzinə.

**5.** Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın dövrü yoxlama müddəti 1 ildir.

©AZSTAND –Bütün hüquqlar qorunur

**MÜNDƏRİCAT**

1 Tətbiq sahəsi ........................................................................................ 1

2 Normativ istinadlar...................................................................................... 1

3 Termin və təriflər........................................................................................ 1

4 Ümumi müddəalar ..................................................................................... 1

5 Müəssisə standartlarının işlənib hazırlanması............................................... 2


©AZSTAND –Bütün hüquqlar qorunur

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ STANDARTLAŞDIRMA SİSTEMİ.**
**Müəssisə standartları.**
**Ümumi müddəalar**

**AZS 1.4:2023**

**NATİONAL SYSTEM FOR STANDARDIZATION OF AZERBAIJAN REPUBLIC.**
**Enterprise standards.**
**General Provisions**

Tətbiq edilmə tarixi 24 may 2023-cü il

## 1. TƏTBİQ SAHƏSİ

Bu standart müəssisə standartlarının obyektlərini, müəssisə standartlarının işlənib hazırlanması və tətbiqi üçün ümumi müddəaları müəyyənləşdirir.

Bu standartın müddəaları Azərbaycan Respublikasının ərazisində yerləşən, strukturundan və fəaliyyət növündən asılı olmayaraq dövlət və özəl müəssisələrinə, elmi tədqiqat müəssisələrinə, kommersiya təşkilatlarına, özünü tənzimləyən təşkilatlara, o cümlədən assosiyasiyalara, ictimai birliklərə tətbiq edilir.

## 2. NORMATİV İSTİNADLAR

Bu standartda aşağıdakı standarta istinad edilmişdir.

AZS 1.0:2022 Azərbaycan Respublikasının Milli Standartlaşdırma Sistemi. Əsas müddəalar.

AZS 1.5:2022 Azərbaycan Respublikasının Milli Standartlaşdırma Sistemi. Standartların tərtibinə, strukturuna, şərhinə, rəsmiləşdirilməsinə və məzmununa dair ümumi tələblər

## 3. TERMİN VƏ TƏRİFLƏR

Bu standartda AZS 1.0 dövlət standartı üzrə termin və təriflərdən istifadə edilmişdir.

## 4. ÜMUMİ MÜDDƏALAR

**4.1** Müəssisə standartları müəssisələr, o cümlədən dövlət və özəl müəssisələri, elmi tədqiqat müəssisələri, kommersiya təşkilatları, özünü tənzimləyən təşkilatlar, assosiyasiyalar, ictimai birliklər (bundan sonra müəssisə) tərəfindən hazırlana bilər.

**4.2** Müəssisə standartları yalnız müəssisə daxilində hazırlanan və tətbiq edilən məhsul, proses və xidmətlər üçün nəzərdə tutulmuşdur.

Müəssisə daxilində standartlaşdırma obyektləri aşağıdakılardır:

**4.2.1** İşlənib hazırlanan və ya istehsal olunan məhsulun tərkib hissəsi (detalları və yığma vahidləri);

4.2.2 Təşkilatın prosesləri və istehsalatın idarəedilәsi;

4.2.3 İdarəetmə prosesləri;

4.4.4 Texnoloji proseslər, ümumi texnoloji normalar və insanların həyat və ya sağlamlığının, ətraf mühitin təhlükəsizliyini, əmlakın və dövlətin maraqlarının müdafiəsini təmin edən tələblər;

©AZSTAND –Bütün hüquqlar qorunur

4.4.5 Metodlar- layihələndirmə, sınaq və ölçmələrin aparılma metodikaları;
4.4.6 Müəssisə daxilində göstərilən xidmətlər;
4.4.7 Təşkilatda istifadə olunan xammal, material və komplektləşdirici məmulat nomenklaturası;
4.4.8 Məhsulun həyat dövrü mərhələsində yerinə yetirilən proseslər.

**4.3** Müəssisə standartları Azərbaycan Respublikasının qanunvericilik aktları, müvafiq sahə üzrə texniki reqlamentlərin və dövlət standartlarının tələbləri ilə ziddiyyət təşkil etməməlidir.

**4.4** Tədarük olunan məhsul üçün müəssisə standartları təsdiq olunmur.

## 5. MÜƏSSİSƏ STANDARTLARININ İŞLƏNB HAZIRLANMASI

**5.1** Müəssisə standartlarının işlənib hazırlanması, razılaşdırılması, təsdiqi, qeydiyyatı, nəşri, yenidən baxılması, dəyişikliyin edilməsi və ləğvi qaydaları bu standartın tələblərini nəzərə almaqla müəssisə tərəfindən müəyyənləşdirilir.

**5.2** Müəssisə standartlarının tərtibatı AZS 1.5 üzrə aparılır.

**5.3** Müəssisə standartlarının müəssisə rəhbəri (rəhbərin müavini) qərarı və ya standartın birinci səhifəsində şəxsi imzası ilə təsdiq edilir.

Müəssisə standartı müəssisə rəhbərinin qərarı ilə təsdiq olunduqda, onun tətbiq edilmə tarixi müəyyən edilir və zərurət olduqda, standartın tətbiqi üçün təşkilati-texniki tədbirlər təsdiq olunur.

**5.4** Müəssisə standartları bir qayda olaraq qüvvədə olma müddəti məhdudlaşdırılmadan təsdiq edilir. Standartın qüvvədə olma müddəti müəssisənin qərarı ilə məhdudlaşdırıla bilər.


©AZSTAND –Bütün hüquqlar qorunur

ICS 01.120

**Əsas sözlər:** müəssisə standartları, razılaşdırılma, təsdiq, qeydiyyat, tətbiq, nəşr.

©AZSTAND –Bütün hüquqlar qorunur 

Rəsmi nəşr
“Azərbaycan Standartlaşdırma İnstitutu”
Publik hüquqi şəxs

**AZS 1.4:2023**
**Azərbaycan Respublikasının Milli Standartlaşdırma Sistemi.**
**Müəssisə standartları.**
**Ümumi müddəalar**


©AZSTAND –Bütün hüquqlar qorunur